**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyi**

| | |
|---|---|
| *Haraya:* | **SBRS, SVŞN, SLND, SROM, SAFN, SSOF, SANK, STBL** |
| *Göndərilmə nömrəsi:* | s/32- 3112 /02/16 *Tarix:* 27.01.16 |
| *Sənəd necə göndərilir:* | **El. poçt** |
| *Səhifələrin sayı:* | **1** |
| *Məhdudluğu qrifi:* | **Adi** |
| *Təciliyi:* | **Təcili** |
| *Vacibliyi:* | **Vacib** |

Azərbaycan Respublikasının Dövlət Neft Şirkətindən (ARDNŞ) daxil olmuş məlumata istinadən bildiririk ki, 2016-cı ilin fevral ayının sonunda Bakı şəhərində Cənub Qaz Dəhlizinin (CQD) Məşvərət Şurasının 2-ci toplantısının keçirilməsi barədə qərar qəbul edilmişdir.

AR Prezidentinin təşəbbüsü və bilavasitə iştirakı, CQD-nin keçdiyi ölkələrin və Avropa Komissiyasının rəhbərlərinin dəstəyi ilə yaradılmış bu mühüm məşvərətçi struktur növbəti toplantısında layihənin reallaşması üzrə işlərin gedişatını nəzərdən keçirəcək və perspektiv tədbirlər planını işləyib hazırlayacaqdır. Məşvərət Şurasının işində Avropa Komissiyasının vitse-prezidenti Maroş Şefçoviçin, CQD-nin bütün ölkələrinin müvafiq iqtisadiyyat və energetika sahələrinin ali rəhbərlərinin, eləcə də CQD üzrə işlərin icraçı şirkətləri ilə yanaşı, ABŞ, Böyük Britaniya və beynəlxalq maliyyə təsisatlarının yüksək səviyyəli nümayəndələrinin iştirakı nəzərdə tutulur.

AR Energetika Nazirliyi və ARDNŞ Məşvərət Şurasının təşkil edilməsi üzrə işi həyata keçirəcəklər. Müvafiq dəvət məktubları yaxın zamanda göndəriləcəkdir.

Qeyd edilən məlumatın Avropa Komissiyası, ABŞ, Böyük Britaniya, İtaliya, Albaniya, Yunanıstan, Bolqarıstan, Türkiyə və Gürcüstan hökumətlərinə aidiyyəti üzrə bildirilməsini xahiş edirik.

**Hörmətlə,**

**Nazir müavini** **Mahmud Məmməd-Quliyev**

MİƏİ-nin rəis müavini Anar Hüseynov

MİƏİ-nin şöbə müdiri Vüsal Abdullayev

icraçı Fuad Fərzəlibəyov

Katiblik üçün: 4/916/16, 22.01.2016